

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 17 (20.918)

29 yanvar 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə açıq dərs keçilib.***

“Muxtariyyət ili” ilə əlaqədar keçilən açıq dərsdə məktəbin tarix müəllimi Arzu Babayeva ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqda şagirdlərə məlumat verərək bildirib ki, ulu öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan xalqına ilk böyük xidmətini məhz Naxçıvanı qorumaqla göstərdi. 1990-cı ilin iyul ayında – Naxçıvanın çətin günlərində xalqımızın böyük oğlu Heydər Əliyevin muxtar respublikaya gəlişi bu qədim torpağı xilas etdi. Dahi rəhbər yaxşı bilirdi ki, ermənilərin göz dikdiyi, blokadada saxladığı Naxçıvanın qorunub saxlanması Azərbaycan dövlətçiliyi, bütövlükdə, türk dünyası üçün nə deməkdir.

1990-cı il noyabrın 17-də muxtar respublika Ali Məclisinin I sessiyası keçirildi. Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçən həmin sessiyanın tariximizdə mühüm əhəmiyyət kəsb etməsi Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarların qəbul edilməsi ilə bağlıdır. Sessiyada, ilk növbədə, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet” və “Sosialist” sözləri çıxarıldı, onun Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul edildi. Naxçıvan Ali Sovetinin də adı dəyişdirildi, onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul olundu. SSRİ-nin hələ mövcud olduğu bir dövrdə belə qərarların qəbulu, həqiqətən, böyük cəsarət tələb edirdi. Sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə olundu.

Bildirilib ki, Azərbaycan xalqının qan yaddaşında silinməz iz qoymuş 20 Yanvar faciəsinə də ilk dəfə siyasi qiymət Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən verildi. Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanan və qəbul edilən “1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərarda ilk dəfə Qanlı Yanvar hadisələrinə siyasi qiymət verilib, bu hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilib və onların adları açıqlanaraq məsuliyyətə cəlb edilmələri tələb olunub. 1991-ci il sentyabrın əvvəllərində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında mühüm hadisələr baş verdi. Sentyabrın ilk günündə muxtar respublikanın bütün sakinləri ayağa qalxıb qüdrətli siyasətçi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini öz üzərinə götürməsini təkidlə tələb etdilər. Şəhərdə bir neçə gün ara vermədən davam edən və 60-70 min nəfərin iştirak etdiyi mitinqlərdə xalq öz qəti tələbindən dönmürdü. Nəhayət, bu təkidli tələb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sentyabrın 3-də keçirilən və tariximizdə mühüm hadisə olan fövqəladə sessiyasında yerinə yetirildi.

Qeyd edilib ki, bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən sayılan, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası ölkəmizin müstəqilliyi dövründə böyük inkişaf yolu keçibdir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən blokada şəraitində olan Naxçıvanı erməni hücumlarından, işğaldan qoruyub, muxtar respublikada sosial-iqtisadi və mədəni quruculuq sahəsində geniş, çoxşaxəli tədbirlər həyata keçiribdir. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra muxtar respublika yeni yüksəliş yoluna qədəm qoyub. Heydər Əliyev siyasi kursunun ən layiqli davamçılarından olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 1995-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçiləndən sonra muxtar respublikada bütün sahələrdə güclü irəliləyiş baş verib, sənayedə, tikintidə, nəqliyyatda, kənd təsərrüfatında, təhsildə, mədəniyyətdə böyük quruculuq işləri həyata keçirilibdir. Bu gün Naxçıvan özünün əsl intibah dövrünü yaşayır.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

## Əhalinin məşğulluğu diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, 2013-cü il ərzində xidmətdə 3059 nəfər qeydiyyata alınmış, muxtar respublika üzrə 2632 nəfər işlə təmin olunmuşdur. Muxtar respublikanın bütün rayonlarında və Naxçıvan şəhərində keçirilən əmək yarmarkalarında 1031 nəfərə işə göndəriş verilmişdir. Bundan başqa, əmək birjaları vasitəsilə 398 nəfər müvəqqəti işlərə göndərilmişdir. Gənclərin müxtəlif peşələrə meyil və maraqlarını inkişaf etdirmək istiqamətində tədbirlərin keçirilməsi də diqqət mərkəzində olmuşdur. 328 nəfər peşə hazırlığını bitirmiş, 308 nəfər ictimai işlərə cəlb olunmuşdur. Əlil və ahıl vətəndaşların fərdi məşğulluğunun təmin edilməsi, maddi rifahının yüksəldilməsi məqsədilə onlar tərəfindən yun corabların toxunması təşkil edilmişdir. Ümumilikdə, hərbi hissələrə göndərilmək üçün bu qəbildən olan insanlar tərəfindən 5007 cüt yun corab, 363 ədəd yun şərf toxunmuşdur. Həyata keçirilən müxtəlifistiqamətli sosial tədbirlər muxtar respublika sakinlərinin sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edən tədbirlərin davamlı xarakter almasını göstərməklə dövlət qayğısının ifadəsi kimi dəyərləndirilir.

Qeyd edək ki, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi Naxçıvan Muxtar Respublikasında prioritet vəzifəyə çevrilmişdir. Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissələrindən birini də bu mühüm məsələnin həlli təşkil edir. Həyata keçirilən məqsədyönlü tədbirlər əmək bazarının inkişafına və yeni iş yerlərinin açılmasına əlverişli şərait yaratmışdır. Əhalinin səmərəli məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqı ödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində yaşaya-yaşaya böyük uğurlara nail olmaq mümkündür. Bunun üçün yollar axtarılır, təşəbbüslər göstərilir. İndi muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Rayonlarda fəaliyyət göstərən məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir. Bu proses, əsasən, informasiya texnologiyaları vasitəsilə və əmək yarmarkalarının keçirilməsi yolu ilə reallaşdırılır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” insanların məşğulluq qabiliyyətinin artmasına, müvafiq işlərlə təmin olunmasına əsaslı stimul olacaqdır.

## Uzunoba Su Anbarında təmir işləri aparılır



Babək rayonu ərazisində yerləşən Uzunoba Su Anbarında bu ilin yanvar ayının əvvəllərindən təmir-bərpa işlərinə start verilib. “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılan təmir-bərpa işlərinə mütəxəssislər və lazımi texnika cəlb olunub. İş icraçısı Kamal Abbaslının verdiyi məlumata görə, su anbarının sahil xətti boyunca uzunluğu 1530 metr olan sahil zolağına beton örtüyünün salınması nəzərdə tutulub. Su anbarının 17,56 metrlik yamac hissəsinin betonlanmasında istifadə edilməsi üçün əraziyə dəmir konstruksiyalar gətirilib. Artıq su anbarının yamac hissəsinə beton örtüyünün salınmasına başlanılıb. Beton örtüyünün qalınlığı əraziyə müvafiq olaraq 22-35 santimetr arasında dəyişəcək. Su tutumu 8 milyon kubmetr olan su anbarına sahil xətti boyunca 1 metr hündürlükdə mühafizə divarı çəkiləcək, anbardan suyun axıdılması üçün qurulmuş suburaxıcı təmir ediləcək. Hazırda ərazidə betonlama işləri davam etdirilir, texnikaların rahat gediş-gəlişi üçün sahil boyu avtomobil yolu 7 metr enində genişləndirilir. Anbarda aparılan təmir-bərpa işləri buraya yığılan suyun itkisiz mühafizəsinə və rahat istifadəsinə imkan yaradacaq.

Qeyd edək ki, son illərdə muxtar respublikada həyata keçirilən meliorasiya-irriqasiya tədbirlərinin həcminin genişləndirilməsi nəticəsində bu sahədə əvvəllər mövcud olmuş problemlər aradan qaldırılır, istifadəçilər üçün geniş imkanlar yaranır. Görülən işlərin nəticəsidir ki, regionda içməli və təsərrüfat suyuna olan tələbatın ödənilməsi istiqamətində müsbət nəticələr əldə olunub, su təminatından çətinlik çəkən bir sıra yaşayış məntəqələri, təsərrüfat subyektləri su ilə tam təmin edilib. Ötən il bu sahədə xeyli iş görülüb, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, 4 nasos stansiyası, 3 subartezian quyusu, 11 kəhriz istifadəyə verilib.

## Aprelin 1-dən etibarən ölkəmizdə “Avro-4” standartları tətbiq olunacaq

Azərbaycan ekoloji standart sahəsində irəliyə doğru daha bir addım atıb. Belə ki, respublika ərazisində dövriyyəyə buraxılan (idxal və ya Azərbaycan Respublikasında istehsal edilən) avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrə dair tələblərin “Avro-4” ekoloji normalarına uyğunlaşdırılması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-cü il tarixli Qərarına əsasən, bu il aprel ayının 1-dən etibarən respublika ərazisində dövriyyəyə buraxılan avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələr üzrə “Avro-4” ekoloji normaları tətbiq ediləcək. Azərbaycanın müşahidə olunan sürətli inkişafı fonunda ölkə avtoparkının müasir avtomobillərlə əvəzlənməsində, ekoloji durumun yaxşılaşdırılmasında, insanların sağlamlığının qorunmasında, yanacaq sərfiyyatına qənaət olunmasında “Avro-4” standartı mühüm rol oynayacaq. “Avro-4” standartına cavab verməyən avtomobillərin isə ölkəyə idxalı dayandırılacaq. Bu barədə məlumat qəzetimizə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən daxil olub.

Komitənin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddəsini rəhbər tutaraq avtonəqliyyat vasitələrindən atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması və ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti bu qərarı verib. AZS 447-2010 dövlət standartına əsasən, növbəti ekoloji sinfə keçdikdən sonra daha aşağı sinfə aid olan avtonəqliyyat vasitələrinin və daxili yanma mühərriklərinin dövriyyəyə buraxılması qadağan ediləcək. Bu standarta əsasən, Azərbaycan Respublikasına gətirilən və ya respublikada istehsal olunan yeni avtonəqliyyat vasitələrinin bu standartın tələblərinə uyğunluğu sertifikatlaşdırma orqanı tərəfindən avtonəqliyyat vasitələrinin tipinin təsdiqi vasitəsilə müəyyən olunacaq.

Xatırladaq ki, avro ekoloji standartları (“Avro 0-6”) avtomobillərin atmosferə atdığı işlənmiş qazların (karbohidrogenlər, karbon monooksid, azot oksidi və sair) normasını müəyyən edir. İlk dəfə bu standartların tətbiqinə 1991-ci ildən Avropada başlanılıb. “Avro-0” adlanan ilk standart 1992-ci ildə “Avro-1” standartı ilə əvəz olunub. Əgər “Avro-0” standartı atmosferə 10 q/saat normasından artıq işlənmiş qaz atmağı qadağan etmişdisə, “Avro-1” ekoloji standartı bundan, təqribən, iki dəfə az – 4,9 q/saat normasından artıq işlənmiş qaz atmağı qadağan edib. 1995-ci ildə isə atmosferə 2,5 q/saat normasından artıq işlənmiş qaz atmağı qadağan edən “Avro-2” ekoloji standartı qəbul olunub. Elə həmin ildən başlayaraq Avropa ölkələri, ABŞ və Yaponiya “Avro-2” standartına keçib. 2000-ci ildən 1,5 q/saat normanı müəyyən edən “Avro-3” standartı, 2005-ci ildən 0,80 q/saat normanı müəyyən edən “Avro-4” standartı, 2009-cu ilin sentyabr ayından etibarən isə 0,60 q/saat normanı müəyyən edən “Avro-5” standartı qüvvəyə minib. “Avro-5” standartı 2014-cü ildən öz yerini “Avro-6” standartına verəcək.

“Avro-4” standartının tətbiqi yeni avtomobillərin idxalında məhdudiyyətə səbəb olmayacaq. Belə ki, ölkəmizdə fəaliyyət göstərən avtomobil markalarının rəsmi distribüter və dilerlərin təklif etdikləri bütün modellər “Avro-4” və “Avro-5” standartlarının tələblərinə cavab verir.

## Faunanın mühafizəsində biotexniki tədbirlərin rolu mühüm əhəmiyyət kəsb edir

Muxtar respublikada ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır. İnsanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə edilməsi həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsidir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ekoloji problemlərin həllinə yönəlmiş tədbirlərin səmərəliliyini artırmaq, ekoloji problemlərin yaranmasının qarşısını almaq məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Cari qış mövsümündə havaların şaxtalı keçməsi, ərazilərin qarla örtülməsi müxtəlif fauna növlərinin qidaya olan tələbatını daha da artırır. Buna görə də adıçəkilən nazirlik tərəfindən əvvəlki illərdə olduğu kimi, cari qış mövsümündə də müxtəlif biotexniki tədbirlər həyata keçirilir. Heyvanların kompleks məskunlaşdığı yerlərə, onların miqrasiya dəhlizlərinə, qoruq, milli park, yasaqlıqlarda təyin olunan yerlərə müxtəlif qida məhsulları yerləşdirilir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən aldığımız məlumata görə, cari mövsümdə qeyd olunan ərazilərə 6 ton daşduz, 13 ton qaba yem (ot məhsulları), 1000 kiloqram buğda, arpa və 14 ton meyvə-tərəvəz məhsulları paylanılıb.

Qeyd edək ki, bu tədbirlər mövsüm ərzində heyvanların qidaya olan tələbatını ödəməklə yanaşı, bitki örtüyünə ziyan vurulmasının da qarşısını alır.

**Xəbərlər şöbəsi**

*2013-cü ilin uğurlu nəticələrini muxtar respublikamızın bütün bölgələrində görmək olar. Ona görə də yurd, torpaq təəssübünü hər şeydən üstün tutan hər bir naxçıvanlı ötən ilin göstəricilərinə sevinir. Naxçıvanın Şərqə açılan qapısı hesab edilən Culfa da bu gün tamam özgə bir büsatdadır. İnsanların maddi-rifah halı xeyli yaxşılaşmış, onların məşğulluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Zəhmətdən çəkinməyən, torpağı daimi iş yerinə çevirən insanlar doğma yurd yerinin bugünkü büsatından qürur duyurlar. Çünki Culfa bu gün müasir Azərbaycan rayonunun canlı nümunəsidir. Və daha xoş sabahlara doğru addımlayır.*

# Culfa



# Uğurlar qürur doğuran tarixə çevrilir

### *Dünənə qısa baxış*

Qədim tarixi olan bu yurd yerinin yaxın keçmişinə qayıdaraq o dövrü xatırlayanlar bugünkü inkişaf və tərəqqi müstəvisində keçmişlə müqayisə belə apara bilməzlər. Çünki sovet dönəminin ən güclü vaxtlarında burada barmaqla sayılası həcmdə iş görülmüşdü. Baxmayaraq ki, Culfa o vaxt hərbçilər və dəmiryolçular şəhəri kimi tanınırdı. Buraya bir ucu Vladivostokdan, bir ucu Kamçatkadan, Sibirdən qonaqlar gəlirdi. O vaxtkı Culfa Rayon Partiya Komitəsinin, Gömrük İdarəsinin və "İnturist" mehmanxanasının binaları dövrün yeni tikililəri olsa da, ənənəvi layihələrdən seçilmirdi. Digər tikililər də cansıxıcı görkəmilə uzaqdan seçilirdi. Bu, o vaxtlar idi ki, üç il yarıma, dörd ilə başa çatan qırmızı bayraqlı beşilliklər bu gözdənuzaq rayona heç nə verməmişdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə bu bölgənin də üzünə gün doğdu. Rayonda həyat canlanmağa başladı. Culfa şəhərində və kənd yaşayış məntəqələrində yeni tikililər həyata vəsiqə aldı. 1988-ci ilin sonlarından başlanan hadisələr bu rayonu da iflic vəziyyətə saldı. Ancaq hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inanan culfalılar çətinliklərə dözdülər. Ulu öndərimizin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra muxtar respublikanın digər bölgələri kimi, Culfa rayonu da yeni inkişaf dövrünə qədəm qoydu.

Son 18 il ərzində rayonun siması tamamilə dəyişmişdir. Culfa şəhərində və bölgənin kəndlərində istifadəyə verilən yeni tikililəri saymaqla qurtarmaq olmaz. Həmin obyektlərin hamısı müasir arxitektura üslubunda və gələcək perspektivlər nəzərə alınmaqla inşa olunmuşdur. 2013-cü ildə də bu tədbirlər davam etdirilmişdir.

### *Quruculuq tədbirləri bütün sahələri əhatə edir*

Məlumat üçün bildirək ki, 2013-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala 2012-ci illə müqayisədə 3,3 faiz çox olmaqla, 41 milyon 804 min manat investisiya yönəldilmişdir. Bu dövrdə rayonda tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz artaraq 39 milyon 140 min manat olmuşdur.

Bəhs olunan dövrdə Teyvaz kəndində 110 şagird yerlik məktəb binasının, kənd və xidmət mərkəzlərinin, Kırna kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Əbrəqunus kəndində məscidin, Camaldın kəndində un dəyirmanının, Culfa şəhərində Azərbaycan Dövlət Bayrağı Meydanı Kompleksinin, Ərəfsə kəndində 306 şagird yerlik məktəb binasının tikintisi, yaxud yenidən qurulması başa çatdırılmışdır.

*Haşiyə*: Burada bir haşiyə çıxmağa ehtiyac duyduq. Bu gün muxtar respublika, sözün həqiqi mənasında, böyük tikinti meydançasıdır. Onu da qeyd edək ki, tikinti-quruculuq tədbirləri hər bir bölgəmizdə aparılır və bu hesaba diyarımızın siması tanınmaz dərəcədə dəyişmişdir. Belə gözəllik qarşısında hətta xaricdən gələn qonaqlar da öz təəccüblərini gizlətmirlər. Sözümüz bunda deyil. Onu vurğulamaq istəyirik ki, quruculuq tədbirləri daha çox kənd yaşayış məntəqələrini əhatə edir. Elə götürək bu rayonu. Bir rayon mərkəzi və 24 kənddən ibarət olan Culfa rayonunun 18 kənd yaşayış məntəqəsində yeni sosial obyektlər inşa olunmuşdur.

Sözümün əvvəlinə qayıdaraq onu da deyim ki, Culfa şəhərində əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edən içməli su və kanalizasiya xətlərinin yenidən qurulması, bu sahədə yeni infrastrukturun yaradılması məqsədilə su anbarlarının, sutəmizləyici və çirkab sutəmizləyici qurğuların, şəhərdaxili içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Bu istiqamətdə görülən işlər nəticəsində ümumi uzunluğu 2400 metr olan yeni su kaptajının, eləcə də 30 baxış quyusunun tikintisi və 400 millimetrlik şüşəlifli borulardan istifadə edilməklə, 10 min 200 metr uzunluğunda içməli su xəttinin çəkilişi yekunlaşdırılmış, həmçinin 5 min kubmetr su tutumu olan sutoplayıcı və sutəmizləyici hovuzların tikintisi davam etdirilmişdir.



*Kırna kəndindən görünüş*

Rayonun kənd yaşayış məntəqələrində də içməli su xətlərinin istismar vəziyyətinin yaxşılaşdırılması üçün bir sıra tədbirlər görülmüşdür. Ötən il Qazançı kəndində 350 metr uzunluğunda, Teyvaz kəndində 220 metr uzunluğunda yeni kaptaj vurulmuş, müxtəlifdiametrli borulardan istifadə edilməklə Qazançı kəndində 1000 metr, Teyvaz kəndində 800 metr uzunluğunda yeni içməli su xətləri çəkilmişdir.

Culfa rayonunda yol tikintisi əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də diqqət mərkəzində saxlanılmış, yeni yolların çəkilişi və mövcud yolların təmiri məqsədilə ardıcıl olaraq zəruri tədbirlər həyata keçirilmişdir.

### *Torpağa bağlı kənd adamlarının maddi-rifah halı xeyli yaxşılaşıb*

Dağlıq və dağətəyi zonada yerləşən bu bölgədə müxtəlif sahələrin inkişafına hərtərəfli dövlət qayğısı culfalıların bir sıra uğurlara imza atmalarına şərait yaratmışdır. Bu cəhətdən iqtisadiyyatda öz aparıcı mövqeyini qoruyan kənd təsərrüfatı sektorunun inkişafı 2013-cü ildə də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq, ardıcıl və məqsədyönlü işlər görülmüşdür.

Belə ki, bəhs olunan dövrdə bölgənin kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştli şərtlərlə 218 min 100 manat dəyərində 605,5 ton mineral gübrə satılmış, yanacaq və motor yağlarına görə 40 manat hesabı ilə 1002 istehsalçıya yardım edilmiş, həmçinin muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları tərəfindən 72 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 104 min manat kredit verilmişdir. Bu dövrdə rayona 31 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı alınıb gətirilmişdir.

Aqrar sektorda özəl bölmənin xüsusi çəkisi var. Bu səbəbdən də özəl bölməyə qayğı davam etdirilmiş, sahibkarlar müxtəlif dövlət yardımlarından bəhrələnmişlər. Belə ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Fondu tərəfindən rayonda kompot istehsalı üçün 10 min, quşçuluq təsərrüfatının yaradılması üçün 15 min, pendir istehsalı üçün 29 min, meyvə-tərəvəz qurudulması sahəsinin yaradılması üçün 34 min, heyvan yemi istehsalı üçün 12 min, istixana kompleksinin yaradılması üçün 15 min manat olmaqla, ümumilikdə, 8 layihə üzrə güzəştli şərtlərlə 167 min manat kredit verilmişdir. Yeni istehsal sahələrinin yaradılması tələbat malları istehsalı ilə yanaşı, əhalinin məşğulluq probleminin həllinə də əhəmiyyətli təsir göstərmişdir. 2013-cü ildə rayonda 116 yeni iş yeri açılmışdır ki, bunun da 96-sı özəl sektorun payına düşür.

Əlverişli iqlim və torpaq şəraiti, kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən davamlı dövlət qayğısı rayonda əkinçiliyin inkişafında başlıca stimul olmuşdur. Yola saldığımız ildə 8226 hektar sahədən məhsul tədarük edilmişdir. Əkilmiş sahələrin 5083 hektarını taxıl əkini təşkil etmişdir. Zəmilərdən 13207 ton taxıl tədarük olunmuşdur.

Kartofçuluğun inkişafı da diqqət mərkəzində saxlanılmış, 484 hektar sahədə kartof əkilmiş, 5198,1 ton kartof yığılmışdır.

Rayonda meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün münbit şərait mövcuddur. 2012-ci il fevralın 14-də qəbul olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası bu sahəyə olan marağı daha da artırmış, rayonda bağçılıq təsərrüfatının yaradılması məqsədilə 2 nəfərə 52 min manat kredit verilmişdir.

Qeyd edək ki, heyvandarlıq da rayonun iqtisadiyyatına gəlir gətirən sahələrdən birinə çevrilmişdir. Bu sahədə də ötən ilin rəqəmləri uğurludur. Belə ki, bəhs olunan dövrdə rayonda 2885 ton ət, 9180 ton süd istehsalına nail olunmuşdur. Ümumilikdə isə 2013-cü ildə rayonda 45 milyon 908 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

### *Ekoloji tədbirlər ötən il də davam etdirilib*

Əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də ətraf mühitin mühafizəsi, yeni yaşıllıq sahələrinin salınması istiqamətində görülən işlər davam etdirilmiş, həmişəyaşıl ağacların yetişdirilməsi üçün Culfa şəhərində yaradılan istixananın fəaliyyəti genişləndirilmiş, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik olan yaşıllıq zolaqlarının bərpası və artırılmasına ciddi önəm verilmiş, 33 hektar sahədə yeni yaşıllıqlar salınmış, 12,6 hektar mövcud yaşıllıq sahəsində bərpa işləri aparılmış, 12900 ədəd meyvə ağacı, 6400 ədəd meşə ağacı, 1220 ədəd həmişəyaşıl ağac, 6530 ədəd müxtəlif növ çoxillik gül, 1000 ədəd bəzək kolları əkilmişdir. Yeni salınan yaşıllıqların suvarılması məqsədilə Culfa şəhərinin giriş hissəsindəki "Üçbucaq" adlanan ərazidən 400 metr uzunluğunda yeni suvarma kanalı, 1 ədəd nasos aqreqatı quraşdırılaraq 1620 metr uzunluğunda yeni su xətti çəkilmişdir.



*Teyvaz kəndindən görünüş*

### *Xidmət sahələrinin fəaliyyəti qənaətbəxşdir*

Son illərdə olduğu kimi, 2013-cü ildə də əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi üçün ardıcıl işlər aparılmışdır. Nəhəcir kəndində Yerüstü Peyk İdarəetmə Mərkəzinin tikintisi başa çatdırılmış, rayon ərazisində rəqəmsal televiziya yayımı təşkil olunmuş, 133 yeni telefon xətti çəkilmiş, Culfa şəhərində sürətli internetin təşkili üçün yeni avadanlıq, həmçinin Kırna, Əlincə, Xanəgah, Qazançı, Teyvaz kəndlərində genişzolaqlı internet avadanlığı quraşdırılmışdır.

Rayon əhalisini fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün Culfa şəhərində və Kırna kəndində yeni transformator yarımstansiyaları quraşdırılmış, Culfa şəhərində və kənd yaşayış məntəqələrində 52 ədəd müxtəlif güclü transformator yarımstansiyası təmir edilmiş, həmçinin 2435 metr uzunluğunda kabel xətti, 6700 metr uzunluğunda yuxarı və aşağıgərginlikli yeni elektrik xətti çəkilmiş, 64 min 100 metr uzunluğundakı elektrik verilişi xətlərində təmir və yeniləşdirmə işləri aparılmışdır.

Əhalinin təbii qaz və istiliklə təmin olunmasına diqqət artırılmış, rayon mərkəzində və kənd yaşayış məntəqələrindəki orta və aşağıtəzyiqli qaz xətlərində cari təmir işləri həyata keçirilmiş, texniki səbəbdən yararsız hala düşmüş qaz sayğacları yenisi ilə əvəzləşdirilmiş, yeni tikilmiş fərdi yaşayış evlərinə qaz xətləri çəkilmişdir.

Sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlər əhali rifahının davamlı yüksəlişinə səbəb olmuş, 2013-cü ildə hər bir işçiyə hesablanan orta aylıq əməkhaqqının məbləği artaraq 334,3 manata çatmışdır.

2013-cü ildə əhalinin sosial müdafiəsi sahəsində də tədbirlər davam etdirilmişdir. Bu sahədə aparılan islahatlar aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların maddi-rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir.

**Bu gün tarixi keçmişi ilə müasirliyi qovuşduran Culfa muxtar respublikanın 18 illik inkişaf mərhələsinin ön sıralarında gedən, ölkəmizin inkişaf etməkdə olan, günü-gündən gözəlləşən bölgələrindən biridir. Rayonda həyata keçirilən tikinti-quruculuq işləri buraya müasir görkəm verməklə yanaşı, əhalinin maddi-rifah halının yüksəlməsinə də şərait yaratmışdır. Bütün bunlar muxtar respublikada mövcud inkişafın cəmiyyətin, onun hər bir üzvünün həyatında özünü aydın surətdə əks etdirməsinin göstəricisidir.**

**Culfalılar qürur hissi keçirirlər ki, 2014-cü ildə qazanacaqları uğurların təməlini 2013-cü ildə qoymaqla "Heydər Əliyev ili"nə töhfələrini veriblər. Onlar əmindirlər ki, "Muxtariyyət ili"ndə bu töhfələri təzələyəcəklər.**

**Muxtar MƏMMƏDOV**

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvan Milli Komitəsinin müstəqillik uğrunda mübarizəsi

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Vətənimizin bütövlüyünə göz dikən amansız düşmənlərə qarşı mübarizədə şərəfli bir yol keçmiş, öz varlığını təsdiqləmişdir. Muxtar respublikamız XX əsrin 90-cı illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə mürəkkəb siyasi-iqtisadi vəziyyətdən uğurla çıxaraq zəfərini davam etdirməkdədir. Naxçıvan bu zəfərlərə imza atmaq üçün mübarizələrlə dolu yol keçmişdir.***

Rusiyada çar hakimiyyətinin devrilməsi əsarət altına alınmış xalqlar arasında, o cümlədən Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda azadlıq hərəkatını genişləndirmiş, milli istiqlala ümidləri artırmışdı. Bu dövrdə Naxçıvan, Culfa və Ordubad şəhərlərində milli komitələr yaradılmasına başlanmışdı. Milli komitələrin əsas vəzifəsi milli hərəkatın qarşısında duran vəzifələri müəyyən etməklə bərabər, seçkili orqanların və digər yerli hakimiyyət orqanlarının fəaliyyətinə kömək göstərməkdən ibarət idi. Bədxah ermənilərin bəd niyyətlərindən xəbərdar olan milli komitələr silahlı qüvvələrin yaradılmasını da unutmamışdılar. Milli komitələrdə bolşeviklərin heç bir rolu yox idi. 1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını əvəz edən Zaqafqaziya Seyminin anti-Azərbaycan və anti-türk siyasəti Zaqafqaziyanın müstəqil dövlətlərə parçalanmasını gücləndirdi. Belə bir vəziyyətdə Naxçıvan ciddi təhlükə qarşısında qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvana soxularaq kəndləri yerlə yeksan edir, dinc əhaliyə divan tuturdular.

Azərbaycanın həm siyasi, həm də iqtisadi mərkəzi olan Bakıda daşnakların və eserlərin hökmranlıq etdiyi bir şəraitdə Naxçıvan Milli Komitəsi yalnız özünə arxalana bilərdi. Tarix dəfələrlə göstərmişdir ki, ən çətin vaxtlarda xalq yalnız özünə arxalanmalıdır. Naxçıvandakı silahlı qüvvələrin silah və sursat təchizatı yaxşı olmadığından 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski türklərin tabeliyində olan Maku xanının vasitəsilə türk komandanlığından hərbi yardım istəmişdi. Cəfərqulu xanın fəaliyyətini separatçılıq kimi dəyərləndirən Zaqafqaziya Seyminin narazılığına baxmayaraq, Naxçıvan əhalisinin təhlükəsizliyini təmin etmək üçün Cəfərqulu xan öz fəaliyyətini davam etdirmişdi.

1918-ci il mayında Zaqafqaziya Seymində ziddiyyətlərin kəskinləşməsi seymin dağılmasına və müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına səbəb oldu. Naxçıvan Milli Komitəsi Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən onunla birləşməyə hazır olduğunu bildirsə də, yaranmış siyasi və beynəlxalq vəziyyət xalqın bu arzusunu həyata keçirməyə imkan verməmişdi.

1918-ci ilin yayında daşnaklar Naxçıvanı Ermənistana birləşdirmək üçün hər cür fitnəkarlıqlar törədir, ingilislərdən yardım alaraq Andranikin başçılığı ilə Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdılar. Süst, Çeşməbasar, Tumbul və sair kəndlər tamamilə dağıdılmışdı. Daşnakların bu əzğinlıqlarına müttəfiq dövlətlər – İngiltərə və Fransa hərtərəfli yardım edirdi. Qafqaza dair fitnəkar planlarını həyata keçirməyə və Türkiyəni bu regionda sıxışdırmağa çalışan müttəfiqlər daşnak qüvvələrindən istədikləri kimi istifadə edirdilər.

Naxçıvanın bu çətin günlərində Türkiyə ordusu Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın rəhbərlik etdiyi türk qoşunları Şərur qəzasına daxil olduqdan sonra daşnaklar hücumu müvəqqəti olaraq dayandırdılar. Fürsətdən istifadə edən Andranik Naxçıvanın ələ keçirilməsi üçün yeni planlar qurmağa başladı. Naxçıvan Milli Komitəsi daşnakların üstün qüvvələri qarşısında geri çəkilmək taktikası seçmişdi. Naxçıvanlılar müdafiə tədbirləri görərək torpaqlarımızın müdafiəsinə qalxdılar. Nehrəm kəndində bütün qonşu kəndlərin nümayəndələrinin iştirakı ilə xalq qoşunu dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andranik xalq qoşununun təqibindən qorxaraq Qarabağa qaçdı. Daşnaklarla döyüşdə qətiyyət göstərməməsi ilk vaxtlar türklərlə Naxçıvan Milli Komitəsi arasında münasibətlərin soyumasına səbəb olmuşdu. Lakin bu, Türkiyənin yox, Türkiyəyə hər vasitə ilə təzyiq edərək onları regiondan sıxışdırmaq istəyən müttəfiqlərin siyasəti ilə bağlı idi. Lakin bu soyuq münasibət uzun zaman davam etmədi. Naxçıvan Milli Komitəsi Türkiyə ordusu ilə münasibətləri qaydasına qoyaraq silahlı dəstələrini gücləndirməyə başladı.

I Dünya müharibəsindəki məğlubiyyətlə əlaqədar olaraq, Türkiyə ordusu Cənubi Qafqazdan, o cümlədən Naxçıvandan çıxmalı idi. Belə bir vəziyyətdə Naxçıvanda ingilislərin nüfuzu artmağa başlamışdı. Britaniya hökuməti 1919-cu ildə Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda qoşun hissələri yerləşdirmək istəyir, bu ərazilərin ingilis hakimiyyət orqanları tərəfindən idarə edilməsinə cəhd edirdi. Naxçıvan rəhbərləri bu çətin vəziyyətə yerli muxtariyyəti saxlamaq şərti ilə ingilislərin təkliflərini qəbul etməyə razı olduqlarını bildirmişdilər. Bu çətin günlərdə AXC hökuməti Naxçıvana birbaşa yardım edə bilməsə də, Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən sonra zabit heyəti göndərməklə və hərbi təlimlər vasitəsi ilə Naxçıvana köməklik göstərirdi. Bakıda aparılan danışıqlar zamanı Naxçıvanın AXC-nin tərkibinə daxil olunması məsələlərinə də toxunulmuşdu. Lakin beynəlxalq vəziyyət, hələlik, buna imkan vermirdi.

1919-cu ilin yayında ingilislər tərəfindən ruhlandırılan daşnak qüvvələri yenidən Naxçıvana qarşı hücumla başladılar. Naxçıvan, Şərur və Ordubaddan gələn məlumatlara görə, Ermənistan hökuməti müsəlman xadimləri həbs edir, hər addımda axtarışlar aparır, müsəlmanların əmlakını müsadirə edirdi. Ermənistan hökumətinin nizami hissələri Naxçıvan yaxınlığındakı müsəlmanların yaşadıqları Bulqan kəndini atəşə tutmuşdu, əhali vahimə içərisində evlərini tərk etməkdə idi. Əlbəttə, Naxçıvan torpağında özlərini əsl qəsbkar kimi aparan ingilislər və daşnaklar hər an xalqın qəzəbinə düçar ola biləcəklərini də unutmurdular. Məhz xalqın intiqamından qorxduqları üçün ingilis nümayəndəsi və daşnak general-qubernatoru şəhərdə deyil, Naxçıvandan üç kilometrlik məsafədə yerləşən hərbi düşərgədə lövbər salmağı daha məqsədəuyğun hesab etmişdilər.

Düşmənin özbaşınalığı ilə barışmayan xalq etiraz və çıxışlara başladı. 1919-cu ilin yazında Ordubadda, Şahbuzda, Zeynəddin, Bulqan və digər kəndlərdə ingilislərin müdafiə etdiyi daşnaklara qarşı çıxışlar olmuş, əhali işğalçılardan Naxçıvan torpaqlarını tərk etməyi tələb etmişdi. Düşmən özbaşınalığı uzun sürə bilməzdi. Milli azadlıq hərəkatının artmaqda olan dalğaları 1919-cu il iyunun sonu, iyulun əvvəllərində ingilisləri öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur etdi. Onlar getdikdən sonra Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənarlaşdırmağa müvəffəq oldu.

1919-cu ilin ikinci yarısında Cənubi Qafqazda Paris Sülh Konfransının əsas təşkilatçılarından biri olan Amerika Birləşmiş Ştatlarının rolu artmağa başladı. ABŞ hökuməti Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq istədiklərini bildirmişdi. Onlar Paris Sülh Konfransı və Antantanın ittifaq şurası adından AXC hökumətinə bildirmişdilər ki, Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general-qubernatorluğu təşkil olunacaqdır. Lakin ABŞ-ın bu mövqeyi AXC hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilməmişdir. Naxçıvan Milli Komitəsinin rəhbərləri Cəfərqulu xan və Kalbalı xan ABŞ nümayəndəsi Haskeli inandırmaq istəyirdilər ki, bu şərtlərlə Naxçıvanda general-qubernatorluq yaradılması məqsədəuyğun deyildir. AXC hökuməti isə Naxçıvanda Azərbaycanın general-qubernatorluğunun yaradılmasında israr edirdi. AXC hökuməti altı min nəfərlik qoşun hissəsini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd etmişdi. Öz məqsədinə nail ola bilməyən ABŞ nümayəndəsi daşnakları Naxçıvana qarşı hücuma təhrik etdi və bu yolla onları tabe etməyə çalışdı.

**Lakin döyüş qabiliyyətini çoxdan itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazanmadı. Amerikalıların gözlədiklərinin əksinə olaraq hərbi toqquşmalar, azərbaycanlı əhaliyə qarşı törədilən qanlı cinayətlər Naxçıvan Milli Komitəsinin başçısı Kalbalı xanın hərbi, inzibati və siyasi hakimiyyətini daha da möhkəmlətdi. O həmçinin xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirdi. Milli Komitə Naxçıvanda Sovet hakimiyyəti qurulanadək Azərbaycan xalqının müstəqilliyi uğrunda mübarizəsini davam etdirərək daşnak hücumlarına müvəffəqiyyətlə sinə gərdi. Naxçıvan əhalisinin mübarizliyi onun ərazi bütövlüyünün qorunmasını təmin etdi.**

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***



*Görkəmli maarifçi, böyük mütəfəkkir Məhəmməd Tağı Sidqi Naxçıvan torpağının yetirdiyi tanınmış maarifçilərdən biridir. O, 1854-cü ildə Ordubad şəhərində anadan olmuşdur. İlk təhsilini Molla Məhəmməd Tağı adlı axunddan almış, sonra isə Şah Hüseyn Soltan mədrəsəsində təhsilini davam etdirmişdir. Bir müddət İranda yaşayan görkəmli maarifçimiz orada həm bilik alır, həm də tacirlərin yanında ticarətlə məşğul olurdu. 1885-ci ildə Ordubada qayıdan Sidqi həyatının böyük qismini maarifçilik və bədii yaradıcılığa həsr etmişdir. 1892-ci ildə Avropa mədəniyyətinə dərin rəğbət bəsləyən Hüseyn Sultan Kəngərlinski ilə birlikdə Ordubad şəhərində açdığı "Əxtər" adlı yeni üsullu məktəbdə M.T.Sidqi pedaqoji fəaliyyətə başlamışdır.*

Məhəmməd Tağı Sidqi – 160

# Maarif fədaisi

Bildiyimiz kimi, millətin gələcəyi olan uşaqların, xüsusilə də gənc nəslin tərbiyəsi və təhsili əhəmiyyətli məsələlərdəndir. Sidqi bu təməli sağlamlaşdırıb gələcək adlanan qalanı sağlam bina etmək üçün bütün varlığıyla çalışmışdır.

Naxçıvanda ilk milli məktəblərdən biri olan "Məktəbi-Tərbiyə"ni M.T.Sidqi təsis etmişdir. Bu məktəb Azərbaycan xalqının gələcəyi üçün ən böyük yatırımlardan biri kimi qəbul edilməlidir. Məktəbdə dünyəvi elmlərlə yanaşı, dünya mətbuatını mütaliə etmək imkanı da mövcud idi. "Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır", – deyən Sidqi bir bağban həssaslığı ilə yetişdirdiyi şagirdlərini həm maddi, həm də mənəvi cəhətdən gələcəyə hazırlayırdı. Hüseyn Cavid, Əziz Şərif, Əliqulu Qəmküsar, Rza Təhmasib, Ələkbər Abbasov, Məmmədəli Səfərov və başqaları Sidqi məktəbinin yetirmələri olmuşlar.

"Əncüməni-şüəra" ədəbi məclisinin fəal nümayəndəsi olan M.T.Sidqi yaradıcılığında həm aşiqanə, həm də ictimai motivli nümunələrə rast gəlirik. Elmə rəğbət, məktəbə çağırış motivli ideyaların əks olunduğu əsərlərində yazıçı görkəmli pedaqoq kimliyi ilə diqqət çəkir.

*Çox tərəqqi tapıb cümlə millət,*
*Biz də təhsil edək istirahət.*
*Ciddü-cəhd eyləsin əhli-qeyrət,*
*Bəlkə, gəlsin ələ elmü-sənət.*
*Keçməmiş, keçmamiş vaxt fürsət,*
*Eyləyək, eyləyək dərsə diqqət.*

Onun "Elmin şərafəti", "Məktəbdə", "Oğlan" kimi şeirləri bu çağırışın əks olunduğu nümunələrdəndir.

Sidqinin uşaqlar üçün yaratdığı əsərlər gənc nəslin tərbiyələndirilib maariflənndirilməsində mühüm rol oynayır. Sidqinin əsərləri mətbuatda da çap olunmuş, ictimaiyyət tərəfindən rəzılıqla qarşılanmışdır.

Onun qız uşaqlarının təhsil alması uğrunda mübarizəsi təqdirəlayiqdir. O, mövhumatın tüğyan etdiyi bir zamanda arzularını, istəklərini qorxmadan, çəkinmədən qələmə alırdı:

*Hər qız ki ülümə etsə rəğbət,*
*Axırda, yəqin, tapar səadət.*
*Yox elmdən özgə bir şərafət,*
*Elm ilədir iftixar, qızlar.*

Sidqinin elmə, biliyə çağırış motivli əsərləri yalnız uşaqları deyil, böyükləri də təhsilə, savad əldə etməyə səsləyir. O deyirdi: "Ağıllı ata-ana övladını elmə və tərbiyətə rağib edəndir. Balasını bikar və əziz saxlayan adam övladının düşmənidir".

Əsərlərinin əksəriyyətini nəsihət, öyüd motivli fikirlər təşkil edən sənətkarın bu qiymətli fikirləri müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir. Onun "Heykəli-insana bir nəzər", "Kəblə Nəsir", "Puşkin", "Müxtəsər coğrafiya risaləsi" və sair kimi əsərləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Sidqinin diqqət cəlb edən əsərlərindən biri də "Qəzet, yaxud qəzetə nədir?" adlı məqaləsidir. Qəzetin faydalarından, qəzet oxumağın vacibliyindən bəhs edilən bu məqalədə qəzetə və mətbuata fərqli baxışlarla yanaşı, obyektiv yanaşmalar da öz əksini tapır. Sənətkarın həm ironik, həm də realist fikirlərinin bir-birini əvəzləməsi şəklində yazılan məqalədə qəzet oxumağa qarşı mənfi münasibətdə olan insanlar tənqid olunur. Eyni zamanda məqalədə dünya ölkələrindən gətirilən bir sıra nümunələrlə qəzet oxumağın faydaları və qəzetin cəmiyyətin dünyagörüşündə, təfəkküründə oynadığı əhəmiyyətli rolundan bəhs olunur: "Qəzetənin mühəssənatı və əhəmiyyəti çox-çoxdur. Onun tərif və tövsifi, izzət və ehtiramı, məziyyət və lüzumu bundan ziyadədir ki, əsrimizdə hər məmləkətin müəzzilat ümurunun nəticəsi və hər millətin nətayici-əfkarının səmərəsi və hər dövlətin politikasının təğyirat və təbdilatı küllən qəzetə ilədir. Qəzetəni alıb oxumaqdan ər etməyəlim".

Dünyanın inkişaf etmiş mədəniyyət mərkəzlərinin tərəqqisində mətbuatın rolunu vurğulayan Sidqi öz ölkəsində də mətbuata qarşı bu cür sevgi və hörmət görmək arzusu ilə çırpınır. Məqaləsini "Qəzet oxuyalım! Qəzet oxuyalım!" sözləri ilə bitirən Sidqinin özü də qəzetlərdə yazılarla çıxış edirdi. O, xalqın tərəqqisini elm öyrənməkdə, mütaliə etməkdə görürdü.

M.T.Sidqi yaradıcılığının əsasını təşkil edən mövzular hər zaman aktualdır; onun elm, mərifət, insanlıq barəsindəki düşüncələri gələcək nəsillərə həyatı anlamaq baxımından meyar rolunu oynayır.

**Nərgiz İSMAYILOVA**

# İlk Naxçıvan baleti

***Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi, bəstəkar Yaşar Xəlilovun yaradıcılığında Vətən, doğma torpaq mövzusu ana xətt təşkil edir. Onun Naxçıvan diyarına olan sonsuz sevgisi müxtəlifjanrlı əsərlərində tərənnüm edilmişdir. Elə son günlərdə tamamladığı "Əshabi-Kəhf" baleti yuxarıda deyilənlərə bariz nümunə ola bilər.***

Dünya bəstəkarlarının yazdıqları balet nümunələrinin əksəriyyəti məhəbbət mövzusuna əsaslanır. "Əshabi-Kəhf" baletində isə, ümumiyyətlə, qadın personajı yoxdur. Bəstəkardan nə üçün bu cür mövzuya müraciət etdiyini soruşduqda öz fikirlərini belə izah etdi: "Əvvəla, bu əsərin də qayəsini məhəbbət mövzusu təşkil edir. Lakin bu, adi, insani məhəbbət deyil, İlahi məhəbbətdir. Gənclər cahillikdən qaçaraq vəhdaniyyətə tapınırlar, onlara bəxş edilən hidayət sayəsində qəlbləri İlahi məhəbbət ilə çırpınır və sonda əbədi olaraq ona qovuşurlar".

Baletin librettosunu da bəstəkar özü tərtib etmişdir. Libretto müqəddəs "Qurani-Kərim"in "Kəhf" surəsinin 9-cu və 26-cı ayələrinə əsaslanır. Əsərdə 18 nömrə var. Birinci nömrə proloq – introduksiya, sonuncu nömrə isə epiloq – himn sayılır. Nömrələrin adlandırılması ayələrdən olan ümumi çıxarışa əsaslanır: I "Qüdrət", II "Hidayət", III "Şəhadət", IV "Qüvvət", V "Dəlil", VI "Zülm", VII "Tərk", VIII "Rəhmət", IX "Dua", X "Pərdə", XI "Möcüzə", XII "Əsrlərin yuxusu", XIII "Oyanış", XIV "Göndəriş", XV "Ehtiyat", XVI "Mübahisə", XVII "Vəhy", XVIII "Vahid".

Baletdə hər bir nömrə ayrılıqda sərbəst olsa da, onları ümumi dramatik inkişaf xətti birləşdirib. "Vahidlik" mövzusu bir leytmotiv olaraq əsər boyu inkişaf etdirilir və öz kulminasiya zirvəsinə sonuncu nömrədə çatır. Burada xor epizodik olaraq orkestr ilə birlikdə "Vahidlik" mövzusunu səsləndirir. Dəqiqliklə desək, azana daxil olan əsas və vacib kəlmələr xorun ifasında səslənir.

"Əshabi-Kəhf" baleti ilk Naxçıvan baleti olmaqla yanaşı, İlahi sözlərə əsaslanan sənət əsəri olaraq, ümumiyyətlə, bütün müsəlman Şərqində bu janrda yazılmış yeganə nümunə sayıla bilər.

Baletin uğurlu səhnə təcəssümünə qovuşacağına xoş ümidlər bəsləyir və müvəffəqiyyətlər arzulayırıq.

***P.S.*** Müəllif bu əsəri Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə bir sənət töhfəsi olaraq ithaf etmişdir.

**Rumiyyə QASIMOVA**
**Naxçıvan Dövlət Universitetinin müəllimi**

# Azərbaycanda distant təhsil: vəzifələr, perspektivlər

*Qloballaşan dünyamız informasiya əsrinə keçdikdən sonra yeni texnologiyalar distant təhsilin imkanlarını genişləndirdi. XXI əsrdə distant təhsil dedikdə təhsil alana öyrədilən məlumatın informasiya və kommunikasiya texnologiyaları vasitəsilə operativ çatdırılması, eyni zamanda öyrənilən materiallara testlər, məntiqi sxemlər, test-məşğələlər vasitəsilə nəzarətin artırılması və onlayn imtahanların götürülməsi başa düşülür. Distant təhsilin tətbiqinin uğurlu nəticələri təhsilalmanın bu formasına dövlət dəstəyinin necə yerinə yetirilməsindən asılıdır.*



Azərbaycan Respublikasında təhsil islahatları ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə aparılmışdır. 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatların məqsədyönlü və planauyğun aparılmasına başlanılmışdır. Aparılan islahatların nəticəsi olaraq, 10 il sonra ölkə Prezidenti cənab İlham Əliyevin "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Sərəncamı tədrisin təşkilində Boloniya prinsiplərini əks etdirməklə bərabər, distant təhsili də əhatə etmişdir. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planının 2.9-cu maddəsində məsafədən təhsilin təşkili nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Sərəncamda dördüncü strateji istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsasında təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması və digər tədbirlərlə yanaşı, distant təhsil kimi tədbirlərdir. Beləliklə, distant təhsilin inkişafına dövlət dəstəyi strategiyada da öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Təhsil Qanununda da təhsilalma formalarından biri distant təhsil kimi göstərilmişdir. Təhsil Qanununda "distant (məsafədən) təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması" kimi dəyərləndirilmişdir.

### *Distant təhsilin tətbiqi imkanları*

Distant təhsil vəsaitləri bütün növ informasiya texnologiyaları – kompüter, kompüter şəbəkələri, multimedia, audio və video sistemləridir. Bu təhsil formasının əsasını proqram təminatı təşkil edir. Proqram təminatı universitetin strukturunu, özündə informasiyaları birləşdirən verilənlər bazasını əhatə edir. Distant təhsilin əsas komponentlərini təhsil verənlə alan arasında qarşılıqlı əlaqənin olması, təhsilin məzmununun kompüter vizuallığı, böyükhəcmli informasiyaların arxivləşdirilməsi, məlumat-axtarış sisteminin mövcudluğu və tədris materiallarının mənimsənilməsinə nəzarət təşkil edir.

Dünya təcrübəsində distant təhsili həyata keçirmək üçün əlverişli proqram təminatlarından biri də MOODLE (Modular-Object-Oriented-Dynamic-Learning-Environment) sistemidir. Onun üstün cəhətlərindən biri pulsuz olmasıdır. MOODLE proqramı 82 dilə tərcümə olunaraq dünyanın 212 ölkəsində tətbiq olunur. Sistem 50000 tələbəni və yüzlərlə kursu əhatə etmək imkanına malikdir. Windows, Linux, Mac OS X kimi proqram təminatları bu sistemi dəstəkləyir. Sistemdə yaranmış hər hansı bir problemin həlli asanlıqla mümkündür. MOODLE vasitəsilə məsafədən təhsil, vebinarlar və onlayn konfranslar da həyata keçirmək olar.

Dünya təcrübəsi göstərir ki, distant təhsil bir neçə istiqamətdə həyata keçirilə bilər: ayrı-ayrı ixtisaslar və peşələr üzrə distant təhsil kursları, distant orta təhsil, distant ali təhsil və distant əlavə təhsil, distant açıq dərslər və distant konfranslar.

Ayrı-ayrı ixtisaslar və peşələr üzrə distant təhsil kursları müxtəlif şirkətlərdə, dövlət qurumlarında və müəssisələrdə çalışan əməkdaşların çalışdıqları sahələr üzrə iş yerlərini tərk etmədən, daha ucuz və sərfəli yolla peşə qabiliyyətlərinin təkmilləşdirilməsinə xidmət edir. Bu kurslar vasitəsilə əldə olunan sertifikatlar yerli və beynəlxalq xarakterli ola bilər. Distant yolla həyata keçirilən təlimlər Azərbaycanda daha geniş yayılmış tədris metodu kimi tanınır.

Distant açıq dərslərin keçilməsi ənənəsi isə Azərbaycan təhsil məkanına çoxdan tanışdır. Distant açıq dərslər fakültələrarası, universitetlərarası və ya beynəlxalq xarakter ala bilər. Tələbələr bu yolla yerli və xarici mütəxəssislərdən konkret bir mövzu ilə bağlı geniş məlumat əldə edə və bu dərsi onlayn yolla interaktiv şəklə sala bilərlər.

Distant və ya onlayn konfranslar da Azərbaycanda geniş yayılmış təlim metodudur. Müxtəlif kameralar və ya skayp proqramı vasitəsilə bir neçə təhsil müəssisəsinin bir arada konfrans keçirməsi ənənəsi artıq uzun illərdir, mövcuddur.

Bəs ali təhsildə distant təhsil dedikdə nə başa düşürük? Əlbəttə ki, burada tədris prosesinin distant idarə olunması əsas yerlərdən birini tutur. Tədris prosesi modullardan ibarətdir. Hər modul bir neçə mühazirəni əhatə edir. Mühazirələr rəqəmsal formatda slaydlar şəklində təqdim olunur. Slaydlar təhsil alanın aktivliyinin artmasına və diqqətinin tədris olunan materiala yönəlməsinə böyük təsir göstərir. Burada lazımi və əhəmiyyətli məlumatlar birləşmiş, sistemləşdirilmiş şəkildə sadə və anlaşılan dildə təqdim olunur. Hər mühazirə dinləməsindən sonra tədris olunan materiallar test yolu ilə yoxlanılır, mənimsənilmə səviyyəsi öyrənilir. Bütün modullar üzrə testlərin uğurlu nəticəsindən sonra fənn üzrə imtahan və ya məqbul suallar təqdim olunur.

### *Distant təhsilin tələbələr üçün üstünlükləri nədən ibarətdir?*



***Əlçatan olması*** *– təhsil müəssisəsinin harada yerləşməsindən asılı olmayaraq, internet və kompüter olan hər yerdən təhsil ala bilmək imkanı*

***Sosiallıq*** *– sosial gərginliyi aradan götürməklə harada yaşamasından, maddi təminatından, yaşından, səhhətindən asılı olmayaraq, insanlara bərabər təhsil almaq üçün şəraitin yaradılması*

***Keyfiyyət*** *– dünyanın tanınmış və yüksək kvalifikasiyalı universitetlərində təhsil almaq şansı verməklə yanaşı, təhsilin monitorinqinin aparılması, professor-müəllim heyəti ilə birbaşa və rahat əlaqə, tədris krediti götürən tələbələrlə internet üzərindən sıx əlaqə və qrup, komanda şəklində verilən tapşırıqların yerinə yetirilməsi*

***İndividuallıq*** *– tələbəyə individual tədris proqramının, tədris planının, tədris qrafikinin hazırlanmasına şərait yaratmaq, fənlərin mənimsəmə ardıcıllığının gənc analar və fiziki cəhətdən qüsurlu insanlar üçün əlçatan olması*

***Obyektivlik*** *– qiymətləndirmənin fənn müəlliminin kimliyindən asılı olmayaraq, obyektiv və şəffaf aparılması*

***İnnovasiyalaşdırma*** *– ən müasir informasiya texnologiyalarından istifadə etməklə ən son yenilikləri tətbiqetmə imkanı*

***Səmərəlilik*** *– ev kirayəsi, nəqliyyat xərclərinə, tədris materiallarına çəkilən xərclərə və vaxta qənaət olunması, tədris tapşırıqlarının qısa müddət ərzində elektrondaşıyıcılar vasitəsilə çatdırılması; dərsdə iştirak etmədiyi təqdirdə saytda yerləşdirilən mühazirə videorolikini istənilən qədər təkrar izləmək imkanının verilməsi*

***Davamlılıq*** *– istənilən ixtisas üzrə təhsil pilləsini başa vurub, digər təhsil pilləsini əldə etməyə şəraitin yaradılması*

***Mobillik*** *– informasiyanın müəllim tərəfindən hər gün yenilənməsi hesabına tələbənin aktual materialı əldə etməklə peşəkar yetişməsi və müasir əmək bazarını öyrənə bilməsi.*

Beləliklə, distant təhsil qeyri-ənənəvi mənbələrə istinad etməklə effektivliyə, sərbəst fəaliyyətə, fərdi və yeni yaradıcılıq imkanına, müxtəlif peşəkar vərdişlərin əldə olunub möhkəmləndirilməsinə, hadisə və proseslərin konseptual və riyazi modelləşdirməsi hesabına təhsildə yeni forma və metodların reallaşdırılmasına şərait yaradır.

***Hörmətli oxucular, növbəti yazımızda Naxçıvanda ali təhsilin inkişafında İKT və distant təhsilin tətbiqi imkanlarından bəhs edəcəyik.***

**Surə SEYİD**
***Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent***

---

***İyirminci əsrin əvvəlləri Azərbaycan romantik ədəbiyyatında özünəməxsus yer tutan şairlərdən biri də Səid Səlmasidir. Qısa ömür sürməsinə baxmayaraq, o, romantik poeziyamızın ideya-bədii yüksəlişində əhəmiyyətli rol oynamış, publisistik əsərləri ilə də diqqəti cəlb etmişdir. İndiyədək bu istedadlı sənətkar haqqında bəzi məqalələr yazılmış, müxtəlif dərslik və tədqiqatlarda onun barəsində qısa şəkildə söz açılmışdır. Lakin şair-publisistin həyat və yaradıcılığı bu vaxtadək lazımınca araşdırılmamış, əsərləri tam halda toplanılıb nəşr edilməmiş, yalnız bir neçə şeri müasir oxuculara çatdırılmışdır. Bu baxımdan filologiya elmləri doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimlinin "Elm və təhsil" nəşriyyatında yenicə çapdan çıxmış "Səid Səlmasi" adlı monoqrafiyası həmin sahədəki boşluğu aradan qaldıran dəyərli tədqiqat əsəridir.***

*Yeni nəşrlər*

# Romantik şair haqqında ilk kitab



Giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından, eləcə də "Əlavələr" bölməsindən ibarət olan bu kitabın ilk fəslində Səid Səlmasinin ömür yolu, mühiti, müasirləri ilə əlaqələri sistemli şəkildə araşdırılmış, şairin tərcümeyi-halı ilə bağlı ədəbiyyatşünaslığımızda müşahidə edilən bir sıra mübahisəli məsələlər dəqiqləşdirilmiş, həmçinin çoxsaylı faktlar, məlumatlar ilk dəfə aşkara çıxarılaraq elmi dövriyyəyə gətirilmişdir. Güney Azərbaycanın Salmas şəhərində dünyaya göz açan, xeyli müddət Bakıda işləyən, bir sıra Şərq və Avropa ölkələrində səyahətdə olan şairin maarif, mətbuat, nəşriyyat sahəsində gördüyü böyük işlər, Səttar xan hərəkatında iştirakı və sair məsələlər də hərtərəfli şəkildə araşdırılmışdır.

İkinci fəsildə romantik şairin lirikası tədqiqata cəlb edilmiş, onun ötən əsrin əvvəllərində müxtəlif mətbuat orqanlarında dərc olunmuş lirik şeirləri elmi-ədəbi təhlil yolu ilə dəyərləndirilmişdir. Xüsusən onun Bakıda yaşayıb fəaliyyət göstərdiyi illərdə qələmə aldığı yeni məzmun və janr xüsusiyyətlərinə malik şeirlərinin təhlili maraq doğurur. Azərbaycan ədəbiyyatında Avropa mənşəli sonet janrının ilk nümunələrini S.Səlmasinin yaratması da tədqiqatda öz elmi qiymətini almışdır.

Kitabın üçüncü fəslində isə Səid Səlmasinin dərin vətənpərvərlik qayəsi ilə səciyyələnən publisistik əsərləri incələnmişdir.

Kitabın "Əlavələr" bölməsində Səid Səlmasinin iyirminci əsrin əvvəllərində müxtəlif qəzet və jurnallarda işıq üzü görmüş məqalə və şeirlərindən seçmələr, sonra isə müasirlərinin şairə həsr etdiyi məqalələr və şeirlərdən nümunələr verilmişdir ki, bütün bu materialların çoxu o dövrdən sonra ilk dəfə ədəbi ictimaiyyətə təqdim olunur.

Hüseyn Həşimli sayca iyirminci kitabı olan bu monoqrafiyada Naxçıvan ədəbi mühiti ilə bağlı materiallar da diqqəti cəlb edir. Xüsusən Səid Səlmasinin şair-publisist Əliqulu Qəmküsarla yaxın dostluğu, məslək və əqidə birliyi, yaradıcılıq əlaqələri, məktublaşmaları, Səidin 1909-cu ildə faciəli ölümündən sonra Ə.Qəmküsarın mətbuatda onun xatirəsinə həsr olunmuş şeir və məqalələr dərc etdirməsi, həmçinin tanınmış ədib Məmməd Səid Ordubadinin S.Səlmasi haqqında şeir yazması, Culfada yaşayan ziyalıların o zaman şairin xatirəsinə ehtiramı və sair barədə üzə çıxarılan bir çox yeni materiallar, aparılan təhlillər ötən əsrin əvvəllərindəki ədəbi-ictimai mühitin bir sıra səhifələrinə aydınlıq gətirir.

**✍ Elnur KƏLBİZADƏ**

---

# Tikinti meydançasında tibbi təlim

Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulan binasında tibbi təlim keçirilmişdir. 50 nəfər inşaatçı və quraşdırıcının iştirakı ilə keçirilən tibbi təlimdə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin baş məsləhətçi-cərrahı, tibb üzrə fəlsəfə doktoru Sabir Novruzov tikinti obyektlərində baş verən istehsalat qəzalarında insanların sağlamlığının qorunması üçün həyata keçirilən tədbirlərdən danışmışdır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının Travmatologiya şöbəsinin həkim-ordinatoru Aydın Qazıbəyov, Reanimasiya-anesteziologiya şöbəsinin ordinatoru Hüseyn Abdullayev və Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin çağırış-həkimi Məmməd Qasımov xarici və daxili, arterial, venoz, kapillyar qanaxmalar, kəllə-beyin travmaları, zədələnmə və sınıqlar, mövsümi xəstəliklər, ürək, ağciyər çatışmazlığı zamanı göstəriləcək ilkin tibbi yardım barədə məlumat vermişlər. Təlimdə əyani vasitələrdən geniş istifadə olunmuş, suallar cavablandırılmışdır.

Tikintinin iş icraçısı Nizami Rzayev inşaatçıların səhiyyə maarifində belə tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamış, kollektiv adından səhiyyə işçilərinə öz minnətdarlığını bildirmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov və nazirliyin kollektivi iş yoldaşları Azər Seyidova, anası
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Məmməd Hüseynəliyevə, əzizi
**RUQİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Nevrologiya şöbəsinin kollektivi şöbə müdiri Yazgül Rzayevaya, anası
**RUQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının kollektivi iş yoldaşları Bayram və Aliyə Rzayevlərə, əzizləri
**MƏMMƏD MƏMMƏDXANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin dekanı Qərib Allahverdiyev və fakültənin əməkdaşları Rafiq Rəhimova, əmisi
**HİDAYƏTİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Laboratoriya şöbəsinin işçiləri iş yoldaşları Həqiqət Əsədovaya, atası
**SƏFƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəcəf və Xatuna Səfərovlar Yazgül və Yəmən Rzayevalara, əzizləri
**RUQİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Teatr və mədəniyyətşünaslıq kafedrasının müdiri Gülxar Əhmədova və kafedranın əməkdaşları iş yoldaşları Ələkbər Qasımova, əzizi
**SƏFƏR ƏSƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşları iş yoldaşları Nuray Əliyevaya, əzizi
**SABİRƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 111